Mina Rəşid



# Zəfərdir mənim adım

M65 **Mina Rəşid**
**Zəfərdir mənim adım.** Bakı, "Təhsil", 2024, səh 136.

Mina Rəşidin "Zəfərdir mənim adım" kitabına 44 gün davam edən şanlı Vətən Müharibəsində Azərbaycanın qazandığı böyük Zəfəri tərənnüm edən şeirləri daxil edilib. Bundan başqa kitabda müqəddəs dəyərlərimiz olan üçrəngli bayrağımıza, Ana dilimizə, milli xalçalarımıza, Qız qalasına, şəhərlərimizə və s. həsr edilən uşaq şeirləri də yer alıb.

M $\frac{4803060202}{053}$ 2024

**ISBN:** 978-9952-518-96-2

© "Təhsil", 2024



## ALİ BAŞ KOMANDANIM

Yatmadı sübhə qədər
Ali Baş Komandanım.
Düşmənlərlə savaşdı
Ali Baş Komandanım.

Vardı səbri, dözümü,
Çox sərt dedi sözünü,
Dosta tutdu üzünü
Ali Baş Komandanım.

Hamı ona "Can!" dedi,
"Bu müqəddəs an" dedi,
"Can, Azərbaycan!" dedi
Ali Baş Komandanım!



## ƏSGƏR, SƏNƏ SALAM OLSUN

Əsgər, sənə salam olsun,
Xoş gəlmisən Qarabağa!
Bu yurd sənin vətənindi
Qalx bu dağa, qalx o dağa.

Qartal kimi zirvəyə çıx,
Göydə bayrağım sevinsin.
Torpağımı azad eylə,
Elim-oymağım sevinsin.

Qardaşımın canındadı
Hələ də düşmən qəlpəsi.
Otuz ildi ürək yaxır
Anaların ah-naləsi.

Atamı düşmən gülləsi,
Anamı həsrət apardı.
Məni Xocalı yarası
Dünyadan çəkib qopardı.



Otuz ildi dərd dağıyam,
Əsir yurdam – qolubağlı.
Adına köçkün deyəndə
Utanıb hər qarabağlı.

Mən daha köçkün deyiləm,
O cəlladlar qaçır indi.
Haqq-ədalət zəfər çaldı,
Düşmənin çırağı söndü.

Ay yurdumun şan-şöhrəti,
Qazi əsgər, qalib əsgər.
Zalımları qov sonadək,
Ol bu yurda sahib, əsgər!

## MƏNƏ ZƏFƏR YARAŞIR

*(Şanlı Azərbaycan əsgərinin dilindən)*

Gözləyirəm illərdi
İndi çox səbirsizəm.
Bu gün qisas günüdü,
Mübarizəm, Təbrizəm.

Vətənimdə toy tutub
Yallı gedən sənmisən?
Bu gün zəfər mənimdi,
Qarşımda əyilmisən!

Xocalıda körpəmin
Nədən oydun gözünü?
Otuz ildi qəlbimdə
Daşıyıram bu zülmü.

Məğlubiyyət yaraşır
Sənə haqsız savaşda!
Mənə zəfər yaraşır
Alnıaçıq, üzüağ
Üçrəngli bayrağımla
Yurdun hər qarışında!

## CƏNGİ HAVASINDAYAM

Bəsdir daha gözlədik,
Qalx ayağa, soydaşım!
Qoy qalmasın düşməndə
Tək bircə qara daşım.

Üçrəngli bayrağımda
Qanımın al rəngi var.
Himnimizi söyləyib
Nərə çəkər oğullar.

Cəngi havasındayam,
Türkün ruhu oyanar.
Bu qüdrətli ordumla
Qarşımda nə dayanar?

## AZAD ŞUŞAM

Ordumuzun gücündən
Qorxub qaçdı yağılar.
Şuşanı azad etdi
Şirbiləkli oğullar.

Bu yer sanki möcüzə –
Uca dağlar, şiş qaya.
Dolama yollarıyla
Biz qalxırıq Şuşaya.

Hərə bir əsgər olub
Durmuşuq keşiyində,
Üzeyirin yurdunda –
Musiqi beşiyində.

Şuşa sənət məbədi,
Gözəlliyin taxtıdır.
Şuşa Azərbaycanın
Mədəni paytaxtıdır.

## QARABAĞ–AZƏRBAYCAN

– Ana, o an yetişdi,
Qarabağa gedirəm.
Otuzillik həsrətə
Son qoymağa gedirəm!

Bu qisas qiyamətə,
Deyirdin axı, qalmaz.
Bu, bir haqq savaşıdı,
İndi dayanmaq olmaz.

Ağlamaq vaxtı deyil,
Gözündə yaş qalmayıb.
Elə mübarək gündü,
Belə bir gün olmayıb.



Yenilməz ordumuzla
Bax irəli gedirik.
Sevin, bu gün "Qarabağ
bizimdir!" – söyləyirik.

Ana, gülümsə indi,
Qarabağa gedirəm.
Sinəmizə çəkilən
Bax o dağa gedirəm.

Düşməni məhv edirik,
Allah bizə yar olsun!
Qələbə müjdəsiylə
Elim bəxtiyar olsun!

Haqqını halal eylə,
Söylə, gedim, anacan.
Qarabağa can qurban,
Qarabağ – Azərbaycan!

## QARABAĞ

Qəlbimi oxşayır Vətən nəğməsi,
Görən, eldən ayrı sevinc olarmı?
Ha yana baxıram, mənim bayrağım,
Söylə, bundan gözəl mənzərə varmı?

"Qarabağ" söyləyir bütün könüllər.
Bu gün bütün ellər "Qarabağ" deyir.
Hər ürək elə bil səngərə dönüb,
Açılan güllələr "Qarabağ" deyir.

Bu gün millətimiz bir yumruq kimi,
Bu gün əsgərimin səngərisən sən.
Ali Baş Komandan hey səndən deyir,
Bu gün qələmimin şah əsərisən.

Sən doğma Vətənin gözünün nuru,
Sən ulu babamın od-ocağısan.
Səni kimsə bizdən qopara bilməz,
Sən ana yurdumun Qarabağısan!



## BAYRAĞIMIZ

Bayraqların içində
Bayrağımız bircədi.
Onun məğrur duruşu
Necə ürəyimcədi!

Bayraqların içində
Duruşuna can qurban.
Bayrağımız söyləyir:
Yaşasın Azərbaycan!

Kövrəlirəm, həm də ki,
Qürurlanır ürəyim...
Azərbaycan anamdı,
Qarabağ gözbəbəyim.

Nələr çəkdi başımız
Heç unutmayaq gərək.
Gözlərin aydın, Vətən,
Zəfər günün mübarək!
Zəfər günüm mübarək!

F. Koçərli adına
Respublika Uşaq
KİTABXANASI
INV. № 130148

## AZƏRBAYCAN ƏSGƏRİ

Oddan-alovdan keçib,
Düşmən üstünə getdin.
Hər barmağın bir silah
Yağıları məhv etdin
Azərbaycan əsgəri.

Şimşək kimi çaxdın sən,
Zülməti yarıb qalxdın.
Şuşada bayrağımı
Alıb köksünə sıxdın.
Azərbaycan əsgəri.

Ucaltdın adımızı,
Cəsarətlə, şərəflə.
Sən yenidən doğuldun
Qəlbimdə bu zəfərlə
Azərbaycan əsgəri!

Yeni bir tarix yazdın,
Sadiq qaldın andına.
Qurban olum, mən sənin
Şəhid, Qazi adına
Azərbaycan əsgəri!



## ƏSGƏRƏ MƏKTUB

Dilimizin əzbəri
Əsgər, ucadır adın!
Müqəddəsdir, təmizdir
Sənin Vətənə andın.

Sən Vətəni, milləti,
Bayrağı qoruyursan.
Üstündə boy atdığım
Torpağı qoruyursan.

Bir gün mən də sənintək
Olacağam bir əsgər.
Başına dolanacam
Yurdumun səngər-səngər.

Biz əsgər oluruq ki,
Analar ağlamasın.
Üçrəngli bayrağımız
Vüqarla dalğalansın!

## QAR YAĞSIN

İstəyirəm qar yağsın,
Qara gün qarda batsın.
Adamlar bir-birinə
Güllə deyil, qar atsın.

Qara qəlblər ağarsın,
Dünyaya yağsın bu qar.
Qışın tən ortasında
Günəştək doğsun bu qar.

Müharibə sözünü
Görüm qar, çovğun alsın.
Qar yağsın, qoy silahlar
Qarın altında qalsın...

## TOPÇU VÜSAL

Uşaqlar, yaxşı baxın,
Unutmayın bu anı.
"Topçu Vüsal!" eşidib,
Ekrana baxdı hamı.

Oğul deyərəm ona,
Qəhrəman duruşuna.
Düşmənə od yağdıran
O qartal baxışına!

Qonşular xəbər verdi
Vüsalın anasına.
Ana göz yaşlarıyla
Baxdı nər balasına.

Ekranı qucaqladı
Həyəcandan az qala...
– Anan qurban boyuna,
İgid, qəhrəman bala!

Azad oldu Qarabağ,
Zəfər çaldı oğullar.
Topçu Vüsal, Zəfərdə
Sənin də öz payın var.

## QƏHRƏMAN OLACAĞAM

Mənim adım Mehdidi,
Mehdi kimi qoçağam.
Böyüyəndə onuntək
Qəhrəman olacağam.

İstəyirəm indidən
Hamı eşitsin bunu:
Qoruyacam işıqlı,
Yaraşıqlı yurdumu.

## ZƏFƏRDİR MƏNİM ADIM

Mən uşaq deyiləm ki,
Böyümüşəm bir il də.
Altı yaşım olacaq
İndi bu gələn ildə.

Üçrəngli bayrağımdı
Mənim müqəddəs andım.
Adım xoşuma gəlir,
Zəfərdir mənim adım!

# Hər Şəhid bir bayraqdı, Başın sağ olsun, Vətən!



Leyla Quliyeva

## HƏR ŞƏHİD BİR BAYRAQDI

Bu ana Vətənimin
Haqq səsidi şəhidlər.
Min bir adın içində
Müqəddəsdi şəhidlər!

Şəhid oldu oğullar
Vətən yaşasın deyə.
Qarabağ azad olub
Haqqa qovuşsun deyə.

Şəhidlərin adları
Bütün eli dolandı.
Bayrağımız Şuşada,
Laçında dalğalandı.

O quruca torpağın,
Daşın sağ olsun, Vətən!
Hər Şəhid bir bayraqdı,
Başın sağ olsun, Vətən!



## GÜLÜMSƏ, EY GENERAL

*(Milli Qəhrəman Polad Həşimova)*

Polad kimi əyilməz,
Aranlısan, dağlısan,
Sən üç rəngə boyanmış
Bir Vətənin oğlusan.

Hamı səndən danışır,
Adın elə doğmadı.
Səni oxşayan sözlər
Kitablara sığmadı.

Gülümsə, ey general,
Azad oldu yurdumuz.
Qürur duy əsgərinlə,
Zəfər çaldı ordumuz.

## CAN, QARABAĞ, QARABAĞ

*(nəğmə)*

Şəhid olsam da, nə dərd,
Oğulların igid, mərd,
Babalardan əmanət
Can, Qarabağ, Qarabağ!

Ay dumanlı dağlarım,
Nəğməli bulaqlarım,
Gəldi gözəl çağlarım,
Can, Qarabağ, Qarabağ!

Doğma yurdum, qismətim,
Otuzillik həsrətim,
Səni Haqdan istədim,
Can, Qarabağ, Qarabağ!

Ürəyimdə qəm idin,
Gözlərimdə nəm idin,
Sənə can qurban dedim,
Can, Qarabağ, Qarabağ!

Açılsın qönçə gülüm,
Dinsin sarı bülbülüm,
Mənim muğamat dilim,
Can, Qarabağ, Qarabağ!

## MÜBARİZ

*(Milli Qəhrəman Mübariz İbrahimova)*

Bilirsinizmi
Kimdi qəhrəman?
Savaşda verməz
Düşmənə aman!

Özünü atar
Odun içinə.
Qırar düşməni
Tək öz gücünə.

Tariximizdə
Qoydu şanlı iz.
Adı Mübariz,
Özü mübariz!



## GÖZÜN AYDIN, MÜBARİZ

Müharibə başladı,
Zəfər çaldı ordumuz!
Gözün aydın, Mübariz,
Azad oldu yurdumuz!

Sən gözləyə bilmədin,
Özün bir ordu oldun.
Qəlbinin fərmanıyla
Düşmənlərə od vurdun.

Sellər kimi çağladın,
Parladın günəş kimi.
Düşmənin ocağına
Düşdün bir atəş kimi.

Qisas almağa getdin,
Getdiyin Haqqın yolu.
Sən azadlıq nəğməmsən,
Mübarizlik simvolu!

Sən bu xalqın vüqarı,
Vətən üçün doğuldun.
Tək bir canla min əsgər,
Bir yumruqla dağ oldun.

İlahidən güc aldın,
Düşmən üstünə getdin,
Sən yüz əlli yağını
Bircə anda məhv etdin.

Qartal kimi şığıyıb,
Aslantəki savaşdın.
Sən yurdumun igidlik
Nişanından danışdın.



Düşmən qorxuya düşdü:
– "Üstümüzə dağ gəlir,
Bizi qırıb-çatır o,
Güllə batmır, sağ gəlir".

"Gəlmişəm Xocalının
Qisasını almağa,
Ədalətin uğrunda
Həm də Şəhid olmağa!"

Sən bizim qürurumuz,
Səni unutmarıq biz.
Sən hər iki cahanda
Bir gövhərsən, Mübariz!

## TƏBRİZ

*(Milli Qəhrəman Təbriz Xəlilbəyliyə)*

Qarabağ, nə doğmasan,
Necə əzizsən, Vətən!
Sənə qurban olarmı,
Söylə, hər yoldan ötən?

Təbriz belə düşünüb
Qarabağa yol aldı.
Atasının qəlbində
Qürurdan dağ ucaldı.

Ata bir qəhrəmandı,
Bir igid oldu oğul.
Fərəhdən Xəlil Rza
Dedi: "Təbrizim, sağ ol!"

Vətən qoynuna aldı
Təbrizini gül kimi.
Adı əbədi qaldı
Qəhrəman oğul kimi.

## XOCALIM MƏNİM

*(Milli Qəhrəman Çingiz Mustafayevə)*

Jurnalistdi o,
Həkimdi həm də.
Vətən çağırdı,
Durmadı gendə.

– Dözmürəm, – dedi, –
Ürəyim orda.
Bu da kameram,
Dostumdur darda.

Dillər dastanı
Ünlü Qarabağ.
Nədir qəlbinə
Çəkilən bu dağ?!



Ağ göyərçinlər
Burda vurulmuş.
Düşmən bir cəllad,
Dünya kor olmuş...

Zalım, uşağın
Nədir günahı?
Tutmazmı səni
Körpənin ahı?!

Başıbəlalı,
Dərdli şəhərim...
Hönkürdü Çingiz:
– “Xocalım mənim...”

Çingiz mərd oğul,
O bir qəhrəman.
Vətən unutmaz
Onu heç zaman!

## NƏ YAXŞI VARSAN, OĞLUM!

Doğum günün mübarək,
Nahid balam, necəsən?
Ürəyimin parası,
Şəhid balam, necəsən?

Bulud kimi dolub, bax,
Anan da, "Salam!" deyir.
Bacı-qardaşların hey,
Hey səni əzizləyir.

Şəhidlər ölmür, uca
Zirvədə qarsan, oğlum!
Fəxr edirəm səninlə
Nə yaxşı varsan, oğlum!

## ŞƏHİDƏM, ÖLMƏMİŞƏM

Şəhiddir mənim adım,
Vətən üçün doğuldum.
Vətən üçün yaşadım,
Uğrunda şəhid oldum.

Mən əbədi diriyəm,
Şəhidəm, ölməmişəm.
Sağım-solum gülüstan,
Cənnət budur, gəlmişəm...

Anam da qürurludur,
Adım Vətənlə təndir.
Məmim ilk beşiyim də,
Məzarım da Vətəndir!

## MƏNİM DOĞMA VƏTƏNİM

Azərbaycan adlanır
Mənim doğma vətənim.
Azərbaycan dilidir
Mehriban ana dilim.

Vətənimin paytaxtı
Yaraşıqlı Bakıdır.
Möhtəşəm Qız qalası
Bakının baş tacıdır.

Bayrağım üçrənglidir:
Qırmızı, yaşıl, mavi.
Mənim bir nağılım var,
Cırtdan aldadır Divi.



Dinim İslam dinidir,
Vətənim mərdlər yurdu.
Torpağımı qoruyur
Böyük, güclü bir ordu.

## GÖZƏL BAKIM

Baxın, Qız qalasının
Başı göylərə dəyir.
Xəzərimin tayı yox –
Şən ləpələr söyləyir.

Nə doğmadır qucağın,
Əzizlər qonağını.
Həzin küləklərinlə
Oxşadın yanağımı.

Ay İçərişəhərim,
İç-içə evlərin var.
İçindən çıxmaq olmur,
Qərib küçələrin var.

Şirvanşahlar sarayı
Min illərin yaddaşı.
Hərəsi bir tarixdi
Babaların başdaşı.

Uca-uca binalar
Ulduzlarla görüşür.
Azərbaycan bayrağı
Günə-aya qovuşur.

Neçə-neçə igidlər
Uğrunda qurban getdi.
Şəhidlər öz qanıyla
Yurdu müqəddəs etdi.

Qoy kor olsun düşmənin,
Gülsün dostların üzü!
Çiçəklən, əziz Bakım,
Dilimin şirin sözü.

Sən doğma vətənimin
Vüqarı, baş tacısan.
Gözəl Bakım, ömrümə
Günəştək nur saçırsan!




## LAÇIN

Laçın mənim dünyamdı,
Laçın iki gözümdü.
Qoy var olsun ordumuz
Laçın yenə bizimdi.

Suyu, havası təmiz,
Burda yaxındı göylər.
Dağlar qoynunda şəhər
Sənə min nağıl söylər.

Sanki Həkəri çayı,
Sevincdən gəlib cuşa.
Burda dağ-daş möcüzə,
Bulaqlar qoşa-qoşa.

Bax yenə də nur saçır,
Abadlaşır diyarım.
Laçın qayalarında
Dalğalanır bayrağım!

## AĞDAM

Üstündən yellər əsdi,
Yellər sənə neyləyər?!
Könlüm səni arzular,
Dilim səni səsləyər.

Ağacların kəsildi,
Yolunu bağladılar.
Evimizi yandırıb
Qəlbimi dağladılar.

Qisasın yaman oldu,
Qoy var olsun Ordumuz.
Səninlə bütövləşdi,
Azad oldu yurduzmuz.

Yolunda candan keçdi
Şəhidimiz, qazimiz.
Ağdam – vuran qəlbimiz
Ağdam – görən gözümüz.

Qoynu nəğməli şəhər,
Sən yenə də bizimsən.
Yenə də deyəcəyəm
Şəhərlərin gözüsən!

## AZƏRBAYCAN BAYRAĞI

Səni enməyə qoymaz
Doğma yurdum – dayağım.
Harda qalib oluruq,
Dalğalanır bayrağım!

Sənə zirvə yaraşır,
İgid elimdəm güc al.
Azərbaycan bayrağı,
Başım üstündə ucal!

Səni qorumalıyıq
Doğma adımız kimi.
Səni unutmarıq biz
Vətən andımız kimi!



## TÜRK BAYRAĞI

Şəhidinin qanından
Doğuldun, türk bayrağı!
Al-qırmızı donunla
Var oldun, türk bayrağı!

Üstündə ay-ulduzun
Ucalığın rəmzidir.
Hər yan türkün bayrağı –
Bir bayraq dənizidir.

Sən həmişə dost oldun,
Qardaş oldun ölkəmə.
Can, Türkiyəm, bilsəydin
Necə heyranam sənə!

Sən adımsan, andımsan,
Türkümsən, türk bayrağı!
Millətlərin içində
Görkümsən, türk bayrağı!




## ŞUŞA

Min bir dərdin dərmanı
Şirin, buz bulaqları.
Şuşa dağın başında,
Dolanbacdı yolları.

Qarabağ şikəstəsi,
Xarıbülbülün eli.
Natəvanın qələmi,
Vaqifin şirin dili.

Şuşamız azad oldu,
Qoy var olsun ordumuz!
Bizi görüb sevinir
Doğma, əziz yurdumuz.

Tez gedək Qarabağa,
Baba, nənə, tələsin.
Şuşasız həsrət sizi
Qəlbinizi üzməsin.

## ŞƏKİ

Doğma, sevimli Şəki,
Qədim, gözəl şəhərim.
Şəhərlərin içində
İlkin, əzəl şəhərim.

Çinarları baş-başa,
Xan sarayı tamaşa.
Təbiəti möcüzə,
Dağları qoşa-qoşa.

Xırda daşlar düzülmüş
Qəşəng küçələri var.
Şəkidə hər insanın
Üzündə gülüş olar.

Sanki bir doğmalıq var
Havasında, suyunda.
Şəki halvası kimi
Şirinlik var soyunda.

Bağında barı gözəl,
Dağlarında dumanı.
Qoy quşlar, çərpələnglər
Bəzəsin göy səmanı.

## GƏNCƏ

Dillər əzbəri Gəncə,
Şəhərlərin gözüsən.
Tarixin çox qədimdi,
Nizaminin sözüsən.

Müsibətlər görmüsən,
Uçub divarın-daşın.
Zəlzələ, müharibə...
Nələr çəkməyib başın.

Gəncə darvazasının
Adı bir tarix oldu.
Qala divarlarınla
Qorumusan bu yurdu.

Səs-sorağın yayılıb
Uzaq-uzaq ellərə.
Bu gün elə gözəlsən,
Əksin düşür Göygölə.



## BƏRDƏ

Sən yurdumun çox qədim
Şəhərisən, a Bərdə.
Sən keçmişim, bugünüm,
Səhərimsəm, a Bərdə!

Qədim xalçalarınla
Dünyaya səs salmısan.
İgidliyin məkanı,
Nüşabə qalasısan.

Quşların nəğmə deyir
Qoca tut ağacında.
Tariximin izi var
Sənin hər bucağında.

Qədim incilərinlə
Hər eldə hörmətin var.
Yurdumun paytaxtıtək
Tarixdə şöhrətin var.

## DALĞALANSIN BAYRAĞIM

Bayrağım qürurumdur,
Azadlıq simvolumdur,
And içirəm mən ona
Müqəddəsdir, uludur.

Dalğalansın bayrağım,
Lap zirvələr qar olsun,
Təki Vətən sağ olsun,
Təki millət var olsun!



## ŞUŞA YENƏ BİZİMDİ

Sevinirəm, mən bu il
Gedəcəyəm Şuşaya.
Şuşa dağ başındadı,
Çatır ulduza, aya.

Dağı-daşı möcüzə.
Çölü-meşəsi bir sirr.
Xəstələr gəlib bura
Haqdan şəfa diləyir.

Nənəm Şuşadan ötrü
Göz yaşı tökür hələ.
Mən onunla gedəcəm
Şuşaya gülə-gülə.

Şuşa vuran qəlbimiz,
Doğma Vətənimizdi.
Qoy var olsun Ordumuz,
Şuşa yenə bizimdi!

## BAXIN TÜRKÜN BAYRAĞINA!

Yaxşı baxın bu bayrağa,
Baxın türkün bayrağına!
Al-qırmızı günəş kimi
Doğan türkün bayrağına!

Qırmızı şəhid qanıdı,
Ay-ulduzu nişanıdı,
Türk eşqidi, türk andıdı
Baxın türkün bayrağına!

Ucaldıqca göyü bəzər,
Haqqı arar, haqqı gəzər,
Maşallah, dəyməsin nəzər,
Baxın türkün bayrağına!



## MƏNİM QİYASLI KƏNDİM

Mənim Qiyaslı kəndim,
De, evimiz necədi?
Kim çıxır ağaclara,
Həyətimiz necədi?

Xallı, qara, ağ gilas...
Ağacların durur mu?
Söyüdlərin qoynunda
Quşlar yuva qururmu?

Həyətlərin xalısı
Bənövşəli, nanəli.
Qoynu güldən naxışlı,
Çəmənləri laləli.

Uzanıb məxmərgülü
Pəncərədən baxırmı?
Bağçamızın içindən
Sular şır-şır axırmı?

Qoynu gülüstan kəndim,
Sənin qoxun başqadı.
Sənin göyün, buludun,
Varın-yoxun başqadı.

Güllə dəydi köksünə
Ağaclar yaralandı.
Yerdə uşaqlar uçdu,
Göydə quşlar dayandı.

Görüşdük hospitalda,
Oğlu çox yaralıydı.
Qonşumuz Gözəl xala,
Görən, indi hardadı?

Badam xalanın qızı
Xocalıya köçmüşdü.
Şəhid oldu dünyası,
Dərdi dillərə düşdü.

Biz də səndən aralı
Yollar yorğunu olduq.
Çadırda, vaqonlarda
Üzünə həsrət qaldıq.

...Gün gəldi, bitdi daha
Bu həsrət, bu qüssə-qəm.
Gördünmü, gözəl kəndim,
Hələ ölməmişəm mən!

## ZƏFƏR BAYATILARI

Yaşasın mərd oğullar,
Cəsur, comərd oğullar.
Elimə arxa-dayaq
Yağıya dərd oğullar.

Bura bizim Qarabağ,
Yarı dağdı, yarı bağ.
Ayağında çiçəyə,
Başındakı qara bax.

Sevin bu gün, gül bu gün,
Yadda saxla, bil, bu gün.
Şuşamız azad oldu!
Nəğmə deyir dil bu gün.

Gözəl yerdi – Şuşadı,
Büllurdandı, şüşədi.
Xarıbülbülün yurdu
Dağ başıdı – Şuşadı.

Həsrətliydim Ağdama,
Qara dama, ağ dama.
Bəsdir, bitsin həsrətim,
Üz tuturam Ağdama.

Yol uzanır Laçına,
Qayaları laçına.
Az qaldı qovuşmağa,
Xəbər çatıb Laçına.

Mən aşiqəm Tərtərə,
Güllə yağır Tərtərə.
Düşmən od ələsə də,
Günəş doğur Tərtərə.



Vaxt gülür Kəlbəcərə,
Baxt gülür Kəlbəcərə,
Nənəm elə sevinir,
Xoş gəlir Kəlbəcərə.

Əzizinəm, Vətəndi,
Torpaqla can bir təndi.
Vermərəm Qarabağı,
Bura bizim Vətəndi!
Bura bizim Vətəndi!

## BÖYÜKLƏR BİZƏ BAXSIN

Axı nəyə gərəkdi
Bu tanklar, bu ordular?
Bizimtək uşaqları
Xocalıda qırdılar.

A dünya uşaqları,
Sarı, qara, ağbəniz...
Sülh nəğməsi oxuyaq,
Aya çatsın səsimiz!



Böyüklər bizə baxsın,
Gəlin tutaq yolları.
Əl-ələ verib gedək,
Susduraq silahları!

## MƏN POLİS OLACAĞAM

Ata, evi yoxdurmu?
Polis getmir gecə də.
Nə vaxt baxsam, ordadı,
Polis durub küçədə.

Ata deyir, ay Polad,
Polis bizi qoruyur.
Yurdun işıqlarını,
Yolu, izi qoruyur.

Əsgər kimi dayanıb,
El üçün candan keçir.
Btün günü çalışır,
Ağı qaradan seçir.

Mən də qoruyacağam
Atamı və anamı.
Çünki polis olacam,
Qoruyacam hamını!



## ANA DİLİM

Ana dilim bal kimi,
Danışmaqdan doymuram.
Mən onu neçə dilin
İçində qoruyuram.

Anamın laylasıyla
Mən boy atıb böyüdüm.
Onun şirin diliylə
Fərəhlənib öyündüm.

Çoxlu nağıl söyləyib
Nənəm bu dildə mənə.
Əlifbanı öyrəndim
Mən sevinə-sevinə.

Çox sevirəm yurdumun
Bayrağını, himnini.
Mən sevirəm anamı,
Həm də Ana dilimi.

## MƏN ƏSGƏR OLACAĞAM

Mən həkim olacağam,
Sağlam olsun uşaqlar.
Mən də müəllim olum,
Qoy gur yansın işıqlar!

Mən aşpaz olacağam,
Acqarına iş olmaz.
Mən dərzi olacağam,
Donsuz, köynəksiz olmaz.

Mən alim olacağam,
Yeniliklər edəcəm.
Mən səyahətçi olub
Uzaqlara gedəcəm.

Mən astronavt olub
Göy üzünə uçacam.
Mən də bəstəkar olub
Sənə nəğmə qoşacam.

Mən şair olacağam,
Sözlərim olsun ordu.
Mən əsgər olacağam,
Qoruyacam bu yurdu.

## BİZİM XALÇAMIZ

Güllü naxışlı,
Yaşıllı, allı.
Xalça toxudu
Nənəm Sayalı.

Bizim xalçamız
Uçacaq indi.
İçindən atlar
Qaçacaq indi.

Burda dəvələr
Düzülüb yola.
Zınqırovlarla
Səs sala-sala.

Bizim xalçamız
Necə əzizdir.
Tariximizdir,
Keçmişimizdir.

Uçar göylərə
Səmada süzər.
Bizim xalçamız
Dünyanı gəzər.

## TƏNDİR ÇÖRƏYİ

Xəmir yoğurdu,
Kündələr tutdu.
Nənəm onları
Təndirə yapdı.

Çörəkdən əvvəl
Yayıldı ətri.
Çörək istədi
Hamının xətri.

Təndir çörəyi
Nə ləzzətlidir.
Nənəmin əli
Bərəkətlidir.



## CIĞAL ÖSKÜRƏK

Xəstələndi, iki gün
Süsən dərsə gəlmədi.
Məktəb üçün darıxdı,
Tez sağalmaq istədi.

Dərslərimi öyrəndim,
Bəs indi mən nə edim?
Axı öskürək məni
Qoymur məktəbə gedim.

Anam bəhməz içirdir,
Limon verir, sağalım.
Əlində qalmışam mən
Öskürəyin, cığalın.

"Məktəb mənsiz darıxır",
– Söylədi anasına.
Məktəbin şəklin çəkib
Tez asdı yaxasına.

## UNUDULMAZ MÜƏLLİM

Bu gün rast gəldim ona,
Saçlarına düşüb dən.
Mənim ilk müəllimim –
Tanıdım onu gendən.

Heç unutmaq olarmı
O sinif otağını?
O balaca, titrəyən
Əlimdən tutmağını?

Hər barmağı bir rəqəm
Toplayardı, çıxardı.
O sehrli əlləri
Necə yaddan çıxarım?

Bir fəndi öyrətməmiş
Əl çəkməzdi, durmazdı.
Hərdən çox yorulsa da,
Qəlbimizi qırmazdı.

Biz dərsi danışanda
Üzündə gül açardı.
Sevincindən o anda
Qanad açıb uçardı.

Çox sevərdik o əziz,
O sevimli insanı.
Bizim qəlbimiz idi
Müəllimin ünvanı.

Bu gün onu görüncə
Elə bil uşaqlaşdım.
Bircə anın içində
Tez gül köşkünə qaçdım.

Məni görüb kövrəldi
Doldu onun gözləri.
Damlalar incə-incə
Oxşadı nərgizləri.

Qəlbindəki naxışlar
Heç vaxt solmaz, müəllim.
"Ana", "Vətən" sözütək
Unudulmaz müəllim!



## MÖTƏRİZƏ

Mötərizə yazmağı
Öyrənib bizim Ayna.
Mötərizə içində
Qaldı armud və alma.

Anasının üzünü
Alıb kiçik ovcuna.
Mötərizəyə aldım
Deyir, səni, ay ana!

## AĞILLI RÖYA

Çaya "Ç" hərfi deyir,
"S" hərfi deyir suya.
Hərfləri öyrənir
Bizim ağıllı Röya.

Xörəyə "X" söyləyir,
"A" deyir o, almaya.
Anası deyir, təki
Qiymətin "İ" olmaya.



## AİLƏ ALBOMU

Bizim də evimizdə
Ailə albomu var.
Ona baxanda sanki
Hamı yanımda olar.

Bax bu mənim babamdı,
Bu da sevimli nənəm.
Nənəm nağıl deyəndə
Ən çox sevinən mənəm.

Bu, əmim, bu bibimdi,
Bu da xalamla dayım.
Mən kənddə keçirəcəm
Dayımla gələn yayı.

Doğum günüm gəlirmiş –
Anam dedi, üzülmə.
Albomdan çıxıb hər kəs
Sabah gələcək bizə.

## QAR YAĞIR

Bax qar yağır, qar yağır,
Yağır çəmənə, düzə.
Yağır damlara, yerə,
Yağır həyatimizə.

Qar yağdıqca hər yanı
Ağ örpəyə bələyir.
Qar sanki ağ çiçəkdi,
Havada rəqs eləyir.

Nənəm də pəncərədən
Bayaqdan qara baxır.
Deyir xəstəlik olmaz,
Göydən bərəkət yağır.



## DƏNİZ

Güzgü önündə
Dəniz bəzəndi:
– De, mən gözələm,
Dəniz gözəldi?

Hündür dabanla
Yırğalanırsan.
Dəniz, ay Dəniz,
Bax yıxılarsan!

"Necə gözəldi", –
Deyir dənizlər.
Dənizçi baban
Səni əzizlər.

## MƏNİM ADIM İPƏKDİ

Mənim adım İpəkdi,
Dörd yaşım var, bilirəm.
Babamla parka gedib
Quşları yemləyirəm.

Nəğmələrim səmayə.
Ucalır axşam-səhər.
Yuxudan oyanıram
Qızaranda ufüqlər.

Həkim olacağam mən
Sağlam olsun uşaqlar.
Müharibə olmasın
Ağlamasın uşaqlar!



## KİTAB OXU

Kitab aldım əlimə
Oxuduqca doymadım.
Nağılın sonunadək
Onu yerə qoymadım.

Sən də al, kitab oxu,
Dostum, sevinəcəksən.
Oxuyub sonra mənə
"Çox sağ ol" deyəcəksən.

## GÜLƏN

Məktəbə hazırlaşır
Siyahı tutub Gülən.
Gonbul, rəngli karandaş,
Kağız, qayçı və qələm.

Nəsə düşür yadına,
Hey uzanır siyahı.
O bir yaş da böyüyüb,
Çox şey lazımdı axı.



## DƏNİZƏ APAR MƏNİ

Dəniz necə böyükdü,
Dəniz necə gözəldi!
Balıqqulağıları
Sanki bağda xəzəldi.

Toplayıram onları,
Aparacam nənəmə.
Nənəm çox sevinəcək,
Gəmi alacaq mənə.

Dənizlə oynayıram,
Ləpələr qovur məni.
Deyirəm, ata, hər gün
Dənizə apar məni!

## ANAM VƏ KİTAB

Nə vaxt görsəm anamı,
Əlində bir kitab var.
Dəftər, kitab, qələmsiz
Dünya ona dar olar.

Ev işləri olmasa,
Anam bir an dayanmaz.
Kitabla yuxulayar,
Kitabsız heç oyanmaz.

Kitablar elə durub,
Əsgəridir anamın.
Kim kitab oxumursa,
Düşmənidir anamın.

## QUMRU

Ağappaq qar içində
Atılıb-düşdü Qumru.
Qartopular düzəltdi
Balaca, yumru-yumru.

Sonra qardaşı ilə
Qardan adam düzəltdi.
Buz kimi əllərini
Anasından gizlətdi.

## FATİMƏ

Ümid məktəbə gedir,
Fatimə üç yaşında.
Ümid dərsin unutsa,
Fatimə salar yada.

Bilirsiniz, Fatimə
Necə şeirlər deyir?
Bapbalaca boyuyla
Himnimizi söyləyir.

Hər əlində bir bayraq,
Qanad açıb Fatimə.
Başına lent yerinə
Bayraq sancıb Fatimə.



## BALACA RƏSSAM

Gözündən heç nə qaçmır,
Baxır evlərə, dağa.
Zəhra deyir, binalar
Bənzəyir oyuncağa.

Uzağı görmək üçün
Təpəciklərə çıxır.
Çiçək dərir çəməndən,
Qoyun-quzuya baxır.

Sonra gəlib ev çəkir,
Başı buluda dəyir.
Buludun qonşusudur
Bizim evimiz, deyir.

## GÜNƏŞ NƏ AĞILLIDI

Günel məktəbə gedir,
Günəş üzünə gülür.
Deyir, yoxsa günəş də,
Ana, məktəbə gəlir?

Günəş nə ağıllıdı,
Göydə ocaq qalayır.
Uzadıb əllərini
O məni qucaqlayır.

## BALACA HƏKİM

Xəstələnmişdi anam,
Sığal çəkdim telinə.
Qucaqladım mən onu,
Şal bağladım belinə.

Ayrılmadım yanından,
Çoxlu xoş söz söylədim.
Əllərini oxşadım,
Üzünü əzizlədim.

Limonlu su gətirdim,
Şirin nağıl danışdım.
Oyuncaqlarla onun
Başını qarışdırdım.

Anam lap tez sağaldı.
Dedi: "Sağ ol, gül qızım.
Sən mənim həkimimsən,
Daha qalmadı arzum".

## ANALAR

Bir azca halsız olsam,
Rəngi solur anamın.
Mənim üzüm güləndə
Üzü gülür anamın.

Elə bil ki bizimlə
Nəfəs alır analar.
Ona görə həmişə
Əziz olur analar.



## NƏNƏMİN AD GÜNÜDÜ

Nənəmin ad günüdü,
Tez tort bişir, ay ana!
Üstünə yaz – "Can nənə",
Çiyələk düz yanına.

Nənəm çox sevinəcək,
Tort verəcək mənə də.
Nənəmi çox sevirəm,
Ana, elə səni də.

## XƏZRİ

Şəhərdən gəlib Xəzri
Əlinə çubuq alıb.
Vurur gülə, ağaca,
Elə bil ki od olub.

Birdən elə qışqırır,
Qorxudan rəngi solur.
Bilmirdi ana toyuq
Bu qədər hirsli olur.

## BƏHMƏZ

Nənəm bəhməz bişirib.
Dadlı, qara şirədi.
Deyirəm ki, ay nənə,
Axı tutlar ağ idi?..

## MƏNİM ADIM İRADƏ

Mənim adım İradə
Ağıllı bir qızam mən.
Nənəmin ilk nəvəsi –
Deyirlər, ulduzam mən.

Bapbalaca olsam da,
Anam mənə dərs deyir.
Hərfləri sayıram,
Evdə hamı sevinir.

Bu qırmızı donumda
Atam deyir çiçəksən.
Anam deyir, birdənəm,
Sən hamıdan göyçəksən.

## MƏN BALACA DƏRZİYƏM

Mən balaca dərziyəm,
Saplarım rəngbərəngdi.
Don tikirəm kuklama,
Görün necə qəşəngdi.

Yaşıl, sarı, qırmızı –
Parçam var, nə rəng desən.
Önlük tikmişəm, geyib
Yaman sevinir Süsən.

Anama tutqac tikdim,
Nənəmə güllü dəsmal.
Deyirəm, ata, mənə
Paltartikən maşın al!



## MƏKTƏB HƏSRƏTİ

Kamil birinci sinfi
Çox həvəslə bitirdi.
Yay tətili əyləncə,
Sonra qüssə gətirdi.

Çantasını oxşayıb,
Ciblərini yoxladı.
Özünə gərək olan
Kitabları topladı.

Tez bir nağıl öyrənib
Anasına danışdı.
Məktəb nə vaxt açılır?
– Həyəcanla soruşdu.

On gün keçdi, Kamilin
Məktəb həsrəti bitdi.
İkinci sinfə də o,
Böyük həvəslə getdi.

## SEHRLİ QUTU

Cizgi filmi göstərir,
Hərdən nağıl danışır.
Unuduram hər şeyi,
Başım ona qarışır.

O qutuda uşaqlar
Sevinirlər, gülürlər.
Gah nəğmə oxuyurlar,
Gah şeir söyləyirlər...

– "Bayaqdan seyr etməkdən,
Oğlum, daha doymadın?
Söndür televizoru!" –
Səsi gəlir anamın.

Bu sehrli qutudan
Gözüm niyə doymayır?
Oyy, dərslərim qaldı ki,
Anam məni çağırır.



## OYNAYAN MAŞIN

Qara maşın oynayır,
Ata, bir bax sən ona.
İçi dolu nəğmədi,
Maşına bax, maşına.

Maşın elə oynayır,
Küçəmizə sığmayır.
Maşındakı bu nəğmə
Nədən belə doğmadır?

Atılıb düşə-düşə
Bir anda gözdən itdi.
Ata, görən maşında
O nəğmə hara getdi?

## QARANQUŞ

Dayımın daxalında
Yuva qurub qaranquş,
Heç bir kəsdən qorxmayan
Mənimlə dost olan quş.

Kənardan seyr edirəm,
Görüm bu quş nə edir:
Balaları yuvada
Yemək dalınca gedir.

O məni görüb uçmur,
Balasını yedirdir.
Anam deyir, qaranquş
Bizə etibar edir.



## AYTƏNİN GÜLLƏRİ

Bu nə gözəl həyətdi,
Hər tərəf gül-çiçəkdi.
Aytənin özü kimi
Gülləri də göyçəkdi.

Şəklimizi çək, ana,
Ağ güllərin içində.
Sonra da bu qırmızı
Qönçələrin içində.

Sarı, çəhrayı güllər
Elə bil ki çətirdi.
Birini də burda çək,
Şəkil olsun ətirli.

## AY BİZDƏN KÜSÜB

Aytən səmaya baxır,
Ay görünmür gözünə.
Deyir, ay bizdən küsüb,
Çıxmayıb göy üzünə.



## QIŞDAN KÜSMÜŞƏM

Oynamıram qartopu,
O gün qışdan küsmüşəm!
Bax, o qara bürünmüş
Qara daşdan küsmüşəm.

Dünən elə sürüşdüm,
Başım bu daşa dəydi.
Qış xoşuma gəlmədi,
Qarla daş məni döydü.

İndi "Ulduzlar kimi
Qar qəşəngdi", – deyirlər.
Məni incitdiyini
Bəs niyə söyləmirlər?

## DOVĞA

Dovğa bişirib anam,
Mənsə durub baxıram.
Dovğa dadlı olsa da,
Yeməyə çox qorxuram.

İsti-isti götürüb
O gün ondan içmişəm.
Dilim elə yanıb ki,
Mən dovğadan küsmüşəm.

Günah dovğada deyil –
Anam deyir, tələsmə,
Dovğa səni gözləyir,
Oğlum, xörəkdən küsmə!

## BİR NAĞILDI KƏNDİMİZ

Meyvə dolu ağaclar,
Çiçəklər baş-başadı.
Quşlar da nəğmə deyir,
Həyat bir tamaşadı.

Toyuq-cücənin səsi
Bir-birinə qarışır.
Hərdən xoruz banlayır,
Quşlar sanki yarışır.

Nənəm xalı toxuyur,
Gülümsəyir bağça, gül.
Günel deyir, kəndimiz
Bir nağıldı elə bil!

## BUZOV

Körpə quzu kimidi,
Bu nə qəşəng buzovdu.
Boz rəngli, ala gözlü,
Bir az ürkək buzovdu.

Deyirəm, şirin buzov,
Qoy sığal çəkim sənə.
Axı hələ tanımır,
Yad gözlə baxır mənə.



## HÖRÜMÇƏK ADAM

Hörümçəyə bənzəyir,
Sakitcə qalxır, durur.
Hörümçək adam kimi
Həmzə evdə tor qurur.

O qədər seyr edib ki,
O, "Hörümçək adam"ı,
Evdə oyun çıxarır,
Dəyişiblər adını.

"Dünyanı qurtarıram
Hörümçək adam kimi" –
Deyir: – "Evdə qoy hər kəs
Qəhrəman bilsin məni!"

## KARANDAŞ VƏ BALERİNA

Karandaşım incədi
Balerinalar kimi.
Mən ona bir don biçdim
Dərzi analar kimi.

İstədim karandaşım
Oynasın onun kimi.
Amma o durub baxdı,
Sevindirmədi məni.

Hər kəsin öz işi var –
Dedi bacım, qardaşım.
Balerina olmağı
İstəmir karandaşın.



## KOSMONAVT OLACAĞAM

Gecələr xoşlayıram
Göy üzünə baxmağı.
Gözlərimdən yayınmır
Bircə ulduz axmağı.

Səma məni elə bil
Göy üzünə səsləyir.
Ay mənimlə danışır,
Ulduzlar gülümsəyir...

– Dostlar, heç darıxmayın,
– Dedim, ulduza, aya.
– "Mən bir kosmonavt olub
Uçacağam səmaya!"

## AYAQQABI ADASI

Burda çoxlu çeşid var,
Götürürdüm, baxırdım.
Zəhraya mağazadan
Ayaqqabı alırdım.

Zəhra dedi: "Ay aman,
Biz gəlmişik uzaya!"
– "Ayaqqabı adası"
söylədi mağazaya.

## ÇİÇƏYİN ÇƏTİRİ

Yağış yağır səhərdən,
Hələ külək də əsir.
Əlindəki çətirlə
Çiçək yaman tələsir.

Məktəb harada qaldı?
Buludlara uçur o.
Gedə bilmir, çətirin
Arxasınca qaçır o.

## MƏKTUB

Anasına həmişə
Minayə məktub yazır:
"Ana, mənə nağıl de,
Ana, məni yatızdır"...

Qardaşından küsəndə
Gözlərindən od saçır.
Atasına söz demir,
Məktubu verib qaçır.

Məktublarla unudur
Ağlayıb-sızlamağı.
Atasına xoş gəlir
Onun məktub yazmağı!

## BALACA GÜNƏŞ

Yuxudan duran kimi
Hamıya gülümsəyir:
"Ata, sabahın xeyir,
Ana, sabahın xeyir!"

Yeddiyaşlı Günəşdən
Qəm qorxur, qüssə qaçır.
O, balaca günəştək
Ətrafına nur saçır.

## AY DA GƏLİR DALIMCA

Mavi yorğan içində
Baş qoyubdu balınca.
Mən getdikcə görürəm
Ay da gəlir dalımca.

Duşünürdum, ay nədən
Arıq olur çöp kimi.
Bir də gördüm kökəlib,
Dönüb olub top kimi.

## QIRMIZI ULDUZ

Meyvə şirəsi içdi,
Amma doymadı Süsən.
Dedi: "Ana, nə olar
Bu şirəni dondursan?"

Ana buz qablarına
Tökdü qırmızı şirə.
Qoydu buz dolabına
Süsən sevinsin, deyə.

Vaxt ötüşdü, ay aman,
Şirə donub oldu buz!
Hər damlası balaca
Qıpqırmızı bir ulduz!

## GÖY QURŞAĞI

Al-əlvan rənglərimlə
Göyün yaraşığıyam.
Sevir məni uşaqlar,
Mən bir göy qurşağıyam!

Hərdən görünürəm mən
Yeddirəngli donumda.
Günəş şəfəqlərilə
Yağış görüşən anda.

De hansı rəssam çəkər?
Heyrətlə baxır hamı.
Allahın əsəriyəm,
Məndən gözəl, de, hanı?



## YEGANƏ MÜƏLLİMƏ

Müəlliməmin adı
Çox gözəldi – Yeganə!
O, mənim ürəyimdə
Bir dənədir, bir dənə.

Mən yaxşı oxuyuram
Müəlliməm sevinir.
Gündəliyə “5” yazır,
Mənə “Afərin” – deyir.

Gül çəkirəm mən ona,
Düzəldirəm ev, gəmi.
– Yeganə müəllimə,
Çox sevirəm mən səni!

## ACIQLI XƏYAL

Xətkeşin işi
Tamam dəyişdi.
Oyuncaq oldu
Sındı, büzüşdü.

Ağacı vurdu
Meyvəni saldı.
Xəyal baxmadı
O meyvə kaldı.

Vurdu xətkeşlə
Bacısını o.
Belə çıxardı
Acısını o.

Nağıl danışdı
Xəyala nənə.
Səhv etdiyini
Anladı nəvə.

## ÇƏKİC

Bu gün çəkiclə
Çalışdı Çingiz.
Çəkicə yaman
Alışdı Çingiz.

Dedi, göstərim
Çəkici sizə?
Sehrlidir o,
Görünmür gözə.

Çingiz çəkici
Ortadan böldü.
Çəkic bir idi,
Beş ədəd oldu.

## BULUD

Mənim adım buluddu,
Yağış, qar, doluyam mən.
Gərək yağışa dönüb
Gülləri sulayam mən.

Qışda qar da olaram,
Buz üstündə süzərəm.
Dolu olsam, qaç evə,
Yoxsa səni üzərəm.

Buludlar toqquşanda
Mən şimşəyə dönərəm.
Evinizdən uzağam,
Qorxma, yanıb-sönərəm.



## ŞAM VƏ NAĞIL

İşıq sönəndə
Şam yandırırıq.
Şam işığında
Biz çalışırıq.

Anam oxuyur,
Şam rəqs eləyir.
Mənimtək şam da
Nağıl dinləyir.

## SƏRÇƏLƏR

Sərçələr dən gəzirlər,
Tökülüblər yollara.
Səhər-səhər sevinir
Səma baxıb onlara.

Çantasından qoğalı
Tez çıxarıb göstərir.
Bir sərçə "cik-cik" edir,
Yəqin, qoğal istəyir.

Səma deyir ki, quşlar
Gör necə dirçəldilər.
Nənəmin qoğalını
Çox bəyəndi sərçələr.

## GÖYƏRÇİN

Evimizin üstündə
Göyərçin evi var.
Gah evdə, gah bayırda
"Qu-qu", "qu-qu" oxuyar.

Tükləri məxmər kimi –
Mavi, yaşıl, boz, qara.
Yəqin, əyni istidir,
Dözür şaxtaya, qara.

Hərdən gəzib-dolanıb
Pəncərəmə qonurlar.
Kim onları bəsləsə,
Onunla dost olurlar.

## QAR ÖMRÜ

Günəşi görən kimi
Qar geriyə çəkildi.
Damlarda suya donüb
Şəlalətək töküldü.

Qartopular əridi,
Qar adamı büzüşdü.
Üst-başım su içində,
Topum palçığa düşdü.

Qarın ömrü nə qısa,
Oynadıq , doyduq, yetər.
Nənəm deyir: "Qış gedər,
Yağan qar olmaz hədər!"



## GÜLƏR

Gülərin güllü donu,
Güllü corabları var.
Güllü şəkil dəftəri,
Güllü daraqları var.

Bax şəklini çəkirəm,
Gülər, mənə baxıb gül!
Gülər güllü donunda
Gülə dönüb elə bil.

## ƏDALƏT BALAM

Quşlarla nəğmə dedi,
Çiçəklərlə dost oldu.
Mənim Ədalət balam
May ayında doğuldu.

Bacısı çox sevindi,
Tutdu toppuş əlindən.
Bütün günü ninnilər
Heç düşmədi dilindən.

– Tez ol böyü, qardaşım,
Nuray səslədi onu.
Oynamaq istəyirəm,
Gərək biləsən bunu.

## QAR ADAM

Şaxtalı qış olsa da,
Dostlar çıxıb gəzməyə.
– "Gəl, qartopu oynayaq",
Elcan deyir Həmzəyə.

Xırdaca toplar kimi
Qar da yağır durmadan.
Uşaqlar ağ dənizdə
Dönüb olur qar adam.

## ÇOX SEVİRƏM BABAMI



Yusif deyir: Hamıdan
Çox sevirəm babamı.
Bilirsinizmi, mənim
Babam qoyub adımı.

İstəyirəm həmişə
Babam olsun yanımda,
Nənəm olsun yanımda,
Anam olsun yanımda,
Atam olsun yanımda!

## AZƏRİN DÖRD YAŞI VAR

Azərin dörd yaşı var,
Çox ağıllı oğlandı.
Üstü-başı tərtəmiz
Səliqəli oğlandı.

Məktəbə getməsə də,
Çoxlu kitabları var.
Rəngli kağız-qələmi
Daim yanında olar.

İki hərf öyrənib
"A" hərfiylə, "N" hərfi.
"Ana" yazıb sevinir,
Qucaqlayır dəftəri.

## GECƏ İŞIQLARI

Maşınların işığı
Sarı, qırmızı, yaşıl,
Qaranlıq gecələrdə
Parlayır işıl-işıl.

Maşınlar uzaqlaşır,
İşıqlar qaçır, qaçır...
Yenə maşınlar gəlir,
Yenə yol qanad açır.



## TUTU TUTU ÇOX SEVİR

Nənəm gətirib bezi
Hərə tutub bir küncdən.
Babam bizə tut çırpır
Budağı vurur bərkdən.

Toyuqlar da tut yeyir,
Quşlar da uçub gəlir.
Amma hər kəsdən artıq
Tutu tutu çox sevir.

## BİR PAYIZ NƏĞMƏSİ

Hərənin öz havası var,
Hər kəsin öz fəsli var.
Mənim də ürəyimdə
Payız möhtəşəm olar...

Payız nə mehribandı,
Günəşi gülümsəyir.
Yağışı damla-damla
Könlümdə rəqs eləyir...

Külək də mənim kimi
Gah küsür, gah da gülür.
Həzin-həzin əsəndə
Heyva qoxusu gəlir.

Sanki dünya boş qalıb,
Bir payızdı, bir də mən.
Yarpaq qonur çiynimə
Pıçıldayır: "Çəkmə qəm".